ƏDƏBİ YAŞANTILAR VƏ YA GÜNDƏLİKDƏN SƏTİRLƏR

(Əvvəli ötən saylarımızda)

17 may 1975. - Bu günüm çox maraqlı keçdi. Axşamüstü yanıma ayrı - ayrı yerlərdən iki dostum gəldi. Məmmədov İlyas və Əsgərov Məzahir. Mən Məzahirlə ədəbiyyat dərnəyində, İlyasla isə bizim zavodun yaxınlığında yerləşən toxuculuq kombinatına məxsus mədəniyyət evinin nəzdində fəaliyyət göstərən Xalq Teatrının məşğələlərinə tamaşa edərkən tanış olmuşam. Bu gənclərin hər ikisi bədii yaradıcılıqla məşğul olur, məhz bu səbəbdəndir ki, məndə onlara qarşı xüsusi hüsn-rəğbət əmələ gəlib. Biz çay içə-içə maraqlı söhbətlər edir, təzə yazılarımızdan nümunələri oxuyur, onları öz aramızda müzakirə edirdik. Bütün varlığımızla yaradıcılıq aləminə elə qapılmışdıq ki, saatların necə keçdiyini belə hiss eləmirdik. Gecə saat bir idi. Radioda şeir deyirdilər. Birdən Məzahir dilləndi:

- Gəlin biz də qələmlərimizi götürüb hərəyə burdaca bir şeir yazaq.

Bu təklif hər üçümüzün ürəyindən oldu. Mən bir qayda olaraq bütün şeirlərimi gecənin bir aləmində, sakit, kimsəsiz otaqda yazmıçam, indi isə yanımda özümdən başqa iki nəfər də var idi. Belə bir şəraitdə şeir yazıb-yaza bilməməyim özüm üçün də maraqlı idi. Odur ki, bir qədər fikirləşdikdən sonra ürəyimdəki fikirləri şeirə döndərmək cəhdinə bulunaraq qarşımdakı vərəqə bu misraları yazmağa başladım:

Gözlərim dikildi görüş yerinə,
Həsrətdən torpağın yandı ürəyi.
Baxıram üfüqün şəfəqlərinə
Dil açır qəlbimin arzu-diləyi.

Heyrət əvvəlidir, hicran zirvəsi,
Ürəyi göynədən o məhəbbətin.
Yaxşı ol, incitmə çalış heç kəsi
Yamnlıq asandır, yaxşılıq çətin.

Məni sevmirsənsə, sənətimi sev,
İlham mənbəyimdir ala gözlərin.
Cənnətə dönəcək sən uçduğun ev,
Sözüm üzdədirsə, mənsı dərin.

Ürəkdən yanraq dedim sözümü
Sevib-sevlməyi çox istərəm mən.
Həyatda itirdim, tapdım özümü,
Qəribə sədalar qopdu sinəmdən.

İnsaf gözəllərdə ali bir nemət,
Daş ürəkli olmaq de, nəyə lazım?
Heyrət istəyirəm, ürəkdə heyrət,
İstərəm ilhamla şeirimi yazım.

Məzahir də həqiqətən mənimkindən qüvvətli və gözəl bir şeir yazmışdı. Hər ikimiz yazdıqlarımızı oxuduq. Növbə İlyasa çatmışdı. O, utancaq halda əlindəki kağızı mənə uzatdı. Oxudum, cəmi bircə bənd yazmışdı:

Bir yay səhərində, yenə yaylaqda
Səhərin nəsimi ötəndə dəm-dəm,
Andım saçlarının bahar ətrini,
Titrədi ürəyim, odlandı sinəm.

Mən heç bir söz demədən vərəqi Məzahirə uzatdım. O, şeiri oxudu və dedi:

- İndi mənim gözlərim önündə sərin yay səhəri, yaşıl yaylaq canlanır. Əsən sərin meh mənə gözəl bir qızın saçlarından gələn bihuşedici ətri xatırladır. Nə qədər təbii gözəllik. Cəsarətlə deyirəm ki, bu bir bəndlik kiçik şeir bizim iri həcmli şeirlərimizdən qüvvətli çıxdı. Mən dedim:

- Gəl hərəmiz bu şeirin altından nəzmlə bir rəy yazaq. Razılaşdıq. Əvvəlcə Məzahir yazdı:

Gözünün qövsündə bir günəş yandı,
Anladım eşqini, duydum qəminini.
Sənin ilhamınla könlüm nurlandı,
Sevdirdin ətirli can aləmini.

Sonra da mən həmin vərəqi aldım və ordaca bu misraları yazdım:

Hər bir sözün, sənətin qiymətini bilənlər
Qoy bu şeiri oxuyub söyləsinlər "afərin".
Öpüb bağrına bassın qoy İlyası görənlər,
Bilsinlər ki, şeirində söz azdır, məna dərin.

Beləcə söz-sənətlə bağlı olan söhbətlər uzanır, arzular, fikirlər bir-birini əvəz edirdi. Hərə ösünün keçmişdə gördüyü işlərdən və gələcək planlarından danışırdı. Mən öz hekayələrimdən, üstündə böyük əmək sərf etdiyim povestimdən hissə-hissə onlara oxuyurdum. Gecə isə bizdən xəbərsiz olaraq şam kimi əriyib gedirdi. Biz yalnız otağın işıqlandığını gördükdə öz aləmimizdən ayrıldıq. Otaq yoldaşlarımdan biri rayona, biri isə qohumu evinə getmişdi. Üç boş çarpayı olduğu üçün rahatca uzanıb yatdıq.

10 oktyabr 1975. - Azərbycanda Sovet ədəbiyyatı ongünlüyü başa çatdı. Çox təəssüf ki, həmin yazıçılarla görüşüb canlı ünsiyyətdə olmaq mənə nəsib olmadı, lakin həmin günlərdə keçirilən bütün tədbirləri radio, televiziya və qəzetlər vasitəsi ilə izləmişəm. Bu günlər ərzində Bakıda S.Vurğunun, Mərdəkanda S.Yeseninin ev-muzeyləri açılmış, Nizaminin , Füzulinin və Səməd Vurğunun heykəlləri önündə poeziya məclisləri keçirilmiş, əziz qonaqlar əfsanəvi dəniz şəhəri olan Neft Daşlarına, respublikanın bir çox rayonlarına, o cümlədən Naxçıvana, Qubaya, eləcə də Bakı məişət kondensionerləri zavoduna və digər iri müəssisələrə səfər etmişlər.

14 oktyabr 1975. - Bu gün uzun müddətli fasilədən sonra yenidən fəaliyyətini davam etdirməyə başlayan ədəbiyyat dərnəyinə getdim. Dərnək keçən bazar günü, oktyabrın 7-də işinə başlayıb. Dərnəyə indi Nəriman Həsənzadə deyil, hörmətli şairimiz Söhrab Tahir başçılıq edir. Elə ilk görüşdən Söhrab müəllim mənə səmimi, sadə və qayğıkeş insan təsiri bağışladı. İndi dərnəyə Nəriman müəllimin dövründə olduğundan ikiqat çox yaradıcı gənc gəlir. Kitabxana direktorunun kabineti darısqalçılıq etdiyi üçün dərnəyin bu günkü məşğələsini kitabxananın böyük oxu zalında keçirdik.

21 dekabr 1975. - Bu gün dərnək daha qaynar və maraqlı keçdi. Qərara alındı ki, gələn bazar günü sevimli şairimiz Osman Sarıvəlli ilə gənclərin görüşü keçirilsin. Söhrab müəllim dedi ki, həmin



gün mən rayonların birinə məhsul bayranına getməliyəm, ona görə də bu gözəl tədbirdə iştirak edə bilməyəcəyəm.

28 dekabr 1975. - Bu gün Lenin adına Mərkəzi şəhər kitabxanasının oxu zalında görkəmli şair Osman Sarıvəllinin anadan olmasının 70 illiyinə həsr olunmuş yubiley tədbiri keçirildi. Tədbirdə Osman Sarıvəlli ilə yanaşı tanınmış qələm sahiblərindən Adil Babayev, Vidadi Babanlı, Oqtay Salamzadə və Rasim Kərimli də iştirak edirdi. Tədbiri giriş sözü ilə yazıçı Oqtay Salamzadə açdı və çıxış üçün ilk sözü kitabxananın işçisi Lətifə xanıma verdi. Lətifə xanım özü ilə şairin müxtəlif illərdə çap olunmuş bir qalaq kitabını gətirmişdi. O, danışdıqca kitabları ayrı-ayrılıqda nümayiş etdirir, hər bir əsər haqqında qədirbilən oxuculara müfəssəl məlumat verirdi. Onun dediklərindən:

- Osman müəllim öz xoşbəxtliyini xalqın taleyində görən sənətkarlardandır. Oxucularımız onun "Şairin hədiyyəsi" (1943), "Yeni dünyanın qapısı" (1958), "Ömrün ötən illəri" (1964) kitabları ilə daha çox maraqlanırlar. "Şairin hədiyyəsi" kitabında həm müharibə, həm də cənub mövzusunda qələmə alınmış şeirlər toplanmışdır. Şairin "Bahar çiçəkləri" (1948) kitabına toplanmış şeirlərə xas olan siyasi kəskinlik göstərir ki, o, daim axtarışda olmaqla yanaşı, insanların həyatı, taleyi, hiss və həyəcanları ilə daha çox maraqlanır. Osman müəllimin "Şairin arzuları" poeması 1954-cü ildə çap olunmuş "Seçilmiş əsərləri" adlı kitabına daxil edilmişdir. "Misirli qardaşlar" adlı poemasında isə şair qədim xalq olan misirlilərin öz tikdikləri Süveyş kanalına sahib olmaq üçün apardığı mübarizəni qələmə almışdır. Qüdrətli söz ustasının 1964-cü ildə işıq üzü görmüş "Ömrün keçən günləri" adlı kitabına daxil edilmiş "Tut ağacı", "Bənövşə", "Gətir, oğlum, gətir" kiimi şeirlərinə xas olan fikir və ifadə tərzinin lakonikliyi, hisslərin yeniliyi və əlvanlığı baxımından oxucunun diqqətini cəlb edir. Onun "Sabahı yaradanlar" kitabı 1970-ci ildə çap olunmuş, yetmişinci illərin sonuna kimi seçilmiş əsərlərinin üçcildliyi qədirbilən oxucularına təqdim edilmişdir.

Bundan sonra söz bizim dərnəyin ən fəal üzvlərindən biri olan odlu-alovlu şair Zəlimxan Yaquba verildi. Xüsusi natiqlik qabiliyyətinə malik olan Zəlimxan sevimli şairimizin yaradıcılığı haqqında böyük ilham və məhəbbətlə danışırdı. O, Vaqifin və Səməd Vurğunun yazmış olduqları "Dağlar" adlı şeirlər ilə Osman Sarıvəllinin "Dağlar"ını müqayisə edirdi. Onun dediklərindən:

- Görkəmli şairimiz Osman Sarıvəlli üzünü dağlara tutaraq yazır:

Mən bir zaman sizdən ayrı
Düşdüm, ay dağlar, ay dağlar.

Keçər dövran, keçər zaman,
Qoyun qalsın bircə nişan.
Bəlkə bir gün bu dünyadan
Köçdüm, ay dağlar, ay dağlar.

Şair bundan sonra "De gəlsin", "Bənövşə" kimi dolğun məzmunlu şeirlərini yaratmışdır. O, şeirlərinin birində yazır:

Neçə qış dolandı, neçə yaz oldu,
Böhranlı günlərin ömrü az oldu.

Şair yaradıcılığı boyunca dəfələrlə dağlara müraciət etmişdir:

Dağların xanı dağlar,
Şahı, soltanı dağlar.
İtibdi bəxtim mənim
Görünmür, hanı, dağlar?!

Zəlimxan könülləri fəth edən Osman Sarıvəlli poeziyasının incəliklərindən danışaraq bildirdi ki, əlli ildən artıq yaradıcılıq yolu keçmiş bu 70 yaşlı ustad şairin adı indi respublikamızın sərhədlərindən çox-çox uzaqlarda tanınır. Mən arzu edirəm ki, Osman müəllim yüz ildən də artıq yaşasın və biz də günlərin birində beləcə yığılıb onun da iştirakı ilə yüz illik yubileyini böyük məhəbbətlə bayram edək. Axı şair bu misraları elə-belə yazmayıb:

Hər kim yüz il yaşamasa
Günah onun özündədir.

Zəlimxan heç bir vərəqə, konspektə baxmadan uzun-uzadı danışaraq şairin yaradıcılığını ətraflı şəkildə, yerli-yataqlı təhlil etdi və onun onlarca şeirindən maraqlı nümunələri səsləndirdi. Onun çıxışı gurultulu və sürəkli alqışlarla qarşılandı.

Bundan sonra növbəti çıxışı etmək üçün söz tanınmış şair Adil Babayevə verildi. O, dedi ki, müharibə vaxtı mən çox cavan idim və Tiflisdə yaşayırdım. O zaman Osman müəllimin üzünü görməsəm də, çapdan çıxan əsərlərini əldə edib acgözlüklə oxuyurdum. Şairin o dövrdə yazdığı və oğlu Babəyə həsr etdiyi "Gətir, oğlum, gətir" şeiri mənim dilimin əzbəri idi. Tiflisdə olarkən yazdığım "Qardaş qanı" adlı şeirimi qəzetə yolladım və çap olunmasını xahiş etdim. Lakin onlar şeiri çap etməyib üstümə qaytardılar. Belə olduqda mən ümidimi üzmədim və həmin şeiri zərfə qoyub Bakıya - o dövrdə kifayət qədər populyar olan "Ədəbiyyat" qəzetinin redaksiyasına göndərdim. Bir neçə gündən sonra şeirimin çap olunduğunu eşitdikdə çox sevindim.

(Davamı var)

Bayram AFURCALI